# "Qəbələ" qəzeti-Qəbələnin salnaməsi

(Əvvəli 5-cı səhifədə).

Bütün bunlar nəinki qonşu ölkələrin, hətta uzaq xarici ölkələrin diqqətini də cəlb etməkdədir. Artıq emal müəssisələrinin istehsal etdikləri məhsullar xarici ölkələrə ixrac olunur. Hər il Qəbələdə ölkənin həyatında mühüm əhəmiyyət kəsb edən beynəlxalq siyasi, iqtisadi və mədəni tədbirlər həyata keçirilir.

Başqa sözlə desək, bu gün rayonumuz dünyada siyasət karifeylərinin, görkəmli şəxsiyyətlərin, iş adamlarının, turistlərinin sürətlə diqqətini özünə cəlb etməkdədir. Təkcə ötən il Qəbələyə 242 min nəfər turist gəlmişdir. Onların 140 min nəfəri xarici turist olmuşdur. Cənubi Qafqazın deməkolar ki, ən səfalı, füsünkar, əsrarəngiz gözəlliklərini özündə birləşdirən Qəbələ həm də insanlarının mehribanlığı, sədaqəti ilə artıq xarici ölkələrdə xüsusi qeyd olunmaqdadır.

Bütün bunlara əsasən desək ki, Qəbələ artıq öz keçmiş şöhrətini qaytarmaq üçün inamla irəli addımlayır, bəlkə heç də yanılmarıq. Digər tərəfdən bu region özünün coğrafi mövqeyi ilə strateji cəhətdən ən əlverişli bir məkanda yerləşir.

Yuxarıda qeyd olunan məsələlərin vaxtlı-vaxtında öz oxucularına çatdırması əlbəttə, qəzetin,onun əməkdaşlarının fədakarlıq nümunəsi, daim öz oxucuları arasında mövqe qazanmasıdır.

Hər il öz başlanğıcını Yeni ildən, yəni yanvar ayının əvvəlindən başlayan qəzet bu il yubiley gününə 1769 nüsxə tirajla qədim qoyub. Belə bir tirajla nəşr olunması onu göstərir ki, hazırda region qəzetləri arasında ən çox sevilən, ən öncül qəzetlərdən biridir. Başqa sözlə desək bu, həm də oxucuların ideya, siyasi baxışlarına, həyatına, dünya görüşünə uyğun yazıların qəzetin səhifələrində yer tapması ilə bağlıdır.

Bir sözlə qəzet rayonun siyasi mədəni həyatında baş verən yenilikləri, maraqlı tədbirləri müntəzəm olaraq öz səhifələrində yığcam da olsa oxucularına çatdırılır. Bütün qeyd etdiklərimiz qəzetin təcrübəli, işgüzar kiçik bir yaradıcı qrupunun, texniki heyətinin gərgin və həm də şərəfli əməklərinin bəhrəsidir. Burada rayon icra hakimiyyətinin, bir çox fəal idarə və müəssisələrin, oxucuların qəzetə dəstəyini də unutmaq olmaz. Yadda saxlamaq lazımdır ki, hər bir qəzet yaşadığı dövrün və ondan əvvəlki dövrün salnaməcisidir. Odur ki, belə bir qəzeti yaşatmaq hər zaman vacibdir.

**Nadir Atakişiyev.**

# Sanitariya profilaktikasının təmin edilməsi diqqət mərkəzindədir

***İnsan sağlamlığı onu əhatə edən ətraf mühitlə sıx bağlıdır. Ətraf mühit amilləri isə çox geniş və əhatəli bir anlayışdır. Həmin amillərə bioloji (virus, bakterial, parazitar və digərləri), kimyəvi, fiziki (səs-küy, titrəmə, ultrasəs, infrasəs, istilik, ionlaşdırıcı və digər şüalar), ictimai (qidalanma, su təchizatı, məişət, əmək şəraiti, istirahət) və digər amillər aiddir ki, bunlar bugünkü və gələcək nəsillərin sağlamlığına ciddi təsir göstərə bilir.***

Azərbaycan Respublikasının "Sanitariya-epidemioloji salamatlıq haqqında" Qanunu ölkə əhalisinin əlverişli mühitdə yaşamaq hüququnu təmin edən mühüm qanunvericilik aktıdır.

Bioloji amillərin mənfi təsirindən qorunmaqla bağlı yoluxucu xəstəliklərin profilaktikası və yoluxucu xəstəliklərlə mübarizə sahəsində bir sıra qanunvericilik aktları qəbul edilmişdir. "Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında", "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında", "İnsanın immun çatışmazlığı virusunun törətdiyi xəstəliyin (AİDS) yayılmasının qarşısının alınması haqqında" qəbul edilən qanunlar bu qəbildən olan hüquqi sənədlərdir. Ölkəmizdə aparılan geniş tibbi-profilaktik tədbirlərin nəticəsində əvvəllər insanların düçar olduğu malyariya, poliomielit, difteriya, məxmərək kimi ağır xəstəliklər artıq son illərdə müşahidə edilmir, peyvəndlə qarşısı alınan xəstəliklərə isə nadir hallarda təsadüf olunur. Digər yoluxucu xəstəliklərin əksəriyyətində də dinamik azalma müşahidə edilir.

Təəsüf ki, sağlamlıqda inkaredilməz əhəmiyyətinə baxmayaraq hələ də uşaqlarını peyvənd etdirmək istəməyən valideynlər vardır. Bütün bu hallar uşaqlar arasında vaksinasiya göstəricisinə mənfi təsir göstərir. Buna görə də əhalinin immunizasiya proqramı ilə bağlı maarifləndirilməsi istiqamətində rayon gigiyena epidemiologiya mərkəzi tərəfindən ictimaiyyət arasında fəal və ardıcıl iş aparılır. Vətəndaşlarımızın sanitariya epidemioloji salamatlığını təmin edən əlverişli mühitdə yaşamaq hüquqlarının təminatı üçün su təchizatı sistemlərinin yaxşılaşdırılması böyük əhəmiyyət kəsb edir.

Rayonumuzda içməli su təchizatının yaxşılaşdırılması ilə bağlı çox böyük tədbirlər həyata keçirilir. "Milli su təchizatı və kanalizasiya xətləri layihəsi" çərçivəsində Qəbələ şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması işləri hazırda davam etdirilir, qəsəbə və kəndlərdə içməli su və suvarma məqsədilə yeni artezian quyuları qazılır.

Su təzhizatı mənbələrinin (çaylar,bulaqlar,artezianlar və s.) sanitar mühafizə zonasının çirklənməsinin, eləcə də həmin ərazilərə məişət tullantılarının atılmasının, çirkab sularının axıdılmasının qarşısının alınması əlaqədar dövlət qurumları ilə bərabər hər bir vətəndaşın diqqət mərkəzində olmalıdır.

Rayon gigiyena epidemiologiya mərkəzi tərəfindən bütün qəsəbə və kənd icra nümayəndiliklərinə və bələdiyyələrə yaşayış məntəqələrində içməli su təchizatının yaxşılaşdırılması, su mənbələrinin sanitariya mühafizəsi, artezian quyularında, su kəmərlərində su axıntısının qarşısının alınması ilə əlaqədar tələb və təkliflər verilmişdir və bu tapşırıqların icrası nəzarətdə saxlanılır.

Sanitariya-epidemioloji salamatlıq mühitində yaşamaq hüququnun ən vacib istiqamətlərindən biri əhalinin təhlükəsiz, keyfiyyətli qidalanmasının təmin olunmasıdır. "Yeyinti məhsulları haqqında" qanunun müddəalarına istehsalçılar və xidmət təşkilatları tərəfindən əməl edilməsi əhalinin sağlam və keyfiyyətli qidalanmasına zəmin yaradır. Təşkilatımız bu məsələləri daim diqqət mərkəzində saxlayır.

**Atif MƏMMƏDOV,**
**GEM-in sanitariya şöbəsinin müdiri.**

## Qəbələnin turizm potensialından bəhs edilir

Birləşmiş Ərəb Əmirliklərinin "Dotemirates.com" populyar internet nəşrində Azərbaycanın zəngin turizm potensialı, həmçinin Qəbələ rayonunun təbiətinin gözəlliyi və görməli yerləri barədə məqalə dərc edilib. Məqalədə qeyd olunur ki, bu yay turistlər gözəl təbiəti və bir sıra maraqlı görməli yerləri ilə məşhur olan Azərbaycanı ziyarət edə bilərlər. Qəbələ rayonunun böyük turizm potensialını, inkişaf etmiş müasir infrastrukturunu,




bu yerlərin son dərəcə gözəl təbiəti oxucuların diqqətinə çatdırır. Bildirilir ki, buranın tarixi və müasir görməli yerləri Azərbaycanın bu rayonuna istirahətə gələn bütün turistlərdə böyük maraq oyadır.

## Barama tədarükü davam edir

Kümçülərin yetişdirdikləri məhsul rayonda "Azəripək" MMC tərəfindən qəbul olunur.



Baramaçılığın inkişafına göstərilən dövlət qayğısı və baramanın qiymətinin subsidiya ilə birlikdə 9 manat olması rayon sakinlərinin bu sahəyə marağını daha da artırıb. Kümçülərimiz tərəfindən ötən il 2753 kiloqram barama istehsal edildiyi halda, cari ildə bu günə kimi 8 ton 836 kiloqramdan artıq barama tədarük olunub.

Barama tədarükü davam edir.

**Nahidə ƏBDÜRƏHİMOVA, «Qəbələ»**

## Doğma ölkəmizdə

### Kənd təsərrüfatı məhsulları istehsalı 8,5 faiz artıb

2018-ci ilin yanvar-may ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 1770,4 milyon manat təşkil edib ki, onun da 1462,7 milyon manatı heyvandarlıq, 307,7 milyon manatı isə bitkiçilik məhsullarının payına düşür.

Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının istehsalı 8,5 faiz, o cümlədən bitkiçilik məhsulları 52,0 faiz, heyvandarlıq məhsulları isə 2,5 faiz artıb.

### Ölkədə ət istehsalı 3,4 faiz artıb

Keçən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-may aylarında diri çəkidə ət istehsalı 3,4 faiz artaraq 195,3 min ton olub.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, bu dövr ərzində süd istehsalı 1,4 faiz artaraq 829,1 min ton, yumurta istehsalı 0,3 faiz artaraq 741,8 milyon ədəd, yun istehsalı isə 1,5 faiz azalaraq 11,8 min ton təşkil edib.

Həmçinin kənd təsərrüfatının ümumi məhsulu 8,5 faiz, o cümlədən bitkiçilik məhsulları istehsalı 52,0 faiz, heyvandarlıq məhsulları istehsalı isə 2,5 faiz artıb.

## Sadə peşə adamları

# Qolun qüvvətli olsun

Hansı sənətin sahibi olursa olsun, insan öz işini sevəndə, ona məsuliyyətlə yanaşanda, yerində olanda xətir-hörmət qazanır, vətəndaşların sevimlisinə çevrilir. Natiq usta da belə insanlardan biridir. Onun çalışdığı emalatxanaya daxil olanda buradakı səliqəsəhman hər şeyi sübut edir.

Natiq Ədilov 1969-cu ildə Mirzəbəyli kəndində dünyaya gəlib. Babası keçən əsrdə Bumdan köçüb Mirzəbəylidə məskunlaşıb. Natiq əvvəlcə sürücülük peşəsinə yiyələnib. Texnikaya olan həvəsi onu avtomobil təmiri ustası edib. Usta İsmət İbrahimovun yanında şagird dayanıb, bu sənətə yiyələnib.

Artıq o, öz sənətinin kamil bilicisidir. Elə buna görə də yaxşı və səliqəli təmirçi kimi həmişə onun müştərisi olur. Avtomobil sahibləri ona iş gördürmək üçün növbəyə dururlar. 1993-cü ildən bu sahədə çalışan Natiq Ədilov bu gün ona müraciət edən sürücülərə yüksək xidmət göstərir.



Qolun qüvvətli olsun, Natiq, yorulmayasan.

**Emin BARATOĞLU, AJB-nin üzvü, «Qızıl Qələm» media mükafatı laureatı.**

# Maraqlı nəzəriyyə

Neft karbohidrogenlərin və digər üzvi birləşmələrin qarışığından ibarət yanar mayedir.

***Bəs neftin mənşəyi nədir?***

Alimlər bu yanar mayenin mənşəyilə bağlı ortaq məxrəcə gələ bilmirlər. Onun üzvi mənşəli olduğunu düşünənlər də var, qeyri-üzvi mənşəli olduğunu hesab edənlər də.

Qeyri-üzvi nəzəriyyəyə görə neft yerin mantiyasında qeyri-üzvi üsulla əmələ gəlib. Alman alim A. Humbolt, fransız alim M. Bertlo qeyri-üzvi nəzəriyyənin tərəfdarlarıdır.



Üzvi nəzəriyyəni irəli sürən alimlər isə neftin bitki və heyvan qalıqlarının çökmə süxurlarda parçalanması nəticəsində əmələ gəldiyini iddia edirlər. Alman alim K. Enqler, rus alim N. D. Zelinski və digər alimlər bu nəzəriyyənin tərəfdarlarıdır.